# Prezident Əliyevin xarici KİV-ə geniş müsahibələri həm də "Azərbaycançılıq platforması"nın təqdimatıdır - Prezident nələri önə çəkir...

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

## 9-cu istiqamət: Azərbaycançılıq ideyasının təbliği

**Tarix boyu dünyada müxtəlif ideologiyalar yaradılıb. Bu ideologiyalar arasında azərbaycançılıq kimi humanizm, insanpərvər, sülh, əmin-amanlıq aşılayan ideologiyalar da, çox təəssüf ki, bəşəriyyətə, insanlığa qarşı olan, müharibə cinayətlərinə yol açan, irqçiliyi, separatizmi, milli-dini ayrıseçkiliyi özünün əsas platforması seçənlər də az deyil.**

Biz buna nümunə kimi faşizm, nasizm, ermənizm, njdeizm və sair zərərli ideologiyaları göstərə bilərik ki, həmin ideologiyaların əsas hədəfi bəşəriyyəti zəhərləmək, millətlər, dinlər, irqlər arasında ayrıseçkilik yaratmaq olub.

**Azərbaycançılıq ideologiyası sülhün, əmin-amanlığın, birgə yaşayışın, milli-dini, mədəni müxtəlifliyin ən unikal təzahür formalarını ehtiva edir**

Bəşəriyyətin, insanlığın, humanizmin və bəşəri həmrəyliyin rəhni olan azərbaycançılıq ideologiyası özündə onlarla xalqın, dinin təmsilçilərini birləşdirir. Azərbaycançılıq ideologiyasının tarixi kökləri çox qədimlərə gedib çıxır, deyərdik ki, xalqımız mövcud olandan bu ideologiya da yaranıb, inkişaf edib, bu gün özünün ən gözəl dövrünü yaşayır. Azərbaycançılıq ideologiyası sülhün, əmin-amanlığın, birgə yaşayışın, milli-dini, mədəni müxtəlifliyin ən unikal təzahür formalarını nəinki ölkəmizdə, eləcə də bütün dünyada ifadə edir. Azərbaycançılıq heç bir xalqın, irqin, dinin qarşısına çəpər çəkmir, onları əritmir, əksinə, onlara inkişaf yolları açır, daha da çiçəklənməsinə imkanlar verir. Multikultural, tolerant dövlət olan Azərbaycan öz milli, dini palitrası ilə dünyada xüsusilə fərqlənir, çoxmillətli, çoxdinli, çoxmədəniyyətli ölkəmiz bu istiqamətdə gerçək uğurlara imza atıb.

Sentyabrın 27-də Ermənistanın növbəti dəfə yaşayış məntəqələrimizi atəşə tutması, çoxsaylı insan tələfatına səbəb olan terrorçu əməllərindən sonra Ali Baş Komandan İlham Əliyevin rəhbərliyilə şanlı ordumuz Azərbaycanın Ermənistanın işğalçı silahlı birləşmələrinin tapdağı altında olan ərazilərimizi işğaldan azad etməsi istiqamətində hərbi əməliyyatlara, antiterror əməliyyatlarına başladı. Artıq 30 gündür torpaqlarımızın işğaldan azad edilməsi ilə bağlı hərbi əməliyyatlar davam edir. Ordumuzun qarşısında duruş gətirə bilməyən Ermənistan çıxış yolunu Azərbaycanın mülki əhalisinə qarşı terror aktları həyata keçirməkdə görür və şəhərlərimizi, kəndlərimizi ballistik raketlərdən, ağır artilleriya qurğularından atəşə tutur. Azərbaycan isə indiyə qədər bir nəfər də olsa erməni mülkilərinə, sivillərə güllə atmayıb, Ermənistanın terrorçu hərəkətlərinə qarşı cəbhədə, döyüş meydanında mübarizə aparır.

**"Biz heç zaman mülki şəxslərə qarşı heç bir addım atmırıq..."**

Məlum olduğu kimi, Prezident İlham Əliyevin son həftələr xarici KİV-ə verdiyi müsahibələrdə azərbaycançılığın xarakterik xüsusiyyətlərindən olan insanlığın, humanizmin, tolerantlığın, başqa xalqlara dözümlü münasibətin, multikulturalizmin təbliğatı və təqdimatı olduqca yüksək səviyyədə ifadə olunub.

Prezident xarici KİV-ə müsahibələrində dəfələrlə vurğulayıb ki, Ermənistandan fəqrli olaraq, Azərbaycan sivilləri hədəfə almır: "...Ermənistanın bu çirkin siyasəti anlaşılandır. Çünki onlar hər zaman döyüş meydanında məğlubiyyətə uğrayanda belə çirkin əməllərə əl atırlar. Mülki şəxslərə, əliyalın insanlara qarşı qəddarlıq göstərmək onlar üçün adi bir şeydir. Azərbaycan xalqı bunu Xocalı soyqırımının timsalında görmüşdür. Bu dəfə də bütün cəbhəboyu Azərbaycan Ordusu uğurlu əməliyyat keçirərək bir neçə şəhər və kəndimizi işğaldan azad etmişdir və işğaldan azadetmə əməliyyatımız uğurla davam edir.

...Ermənistanın bu xain hücumunun səbəbi odur ki, onlar bu münaqişənin coğrafiyasını genişləndirmək, üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatını münaqişəyə cəlb etmək istəyirlər. Məhz buna görə Ermənistan ərazisindən Azərbaycan torpaqlarını, mülki şəxsləri atəşə tuturlar və bizi cavab atəşinə təhrik edirlər. Fəqət, mən demişdim ki, bizim qisasımız döyüş meydanında olacaq. Biz heç zaman mülki şəxslərə qarşı heç bir addım atmırıq və bizim bütün hədəflərimiz hərbi hədəflərdir".

**Prezidentin bütün müsahibələrində azərbaycançılıq ideologiyasının əsas mahiyyəti ifadə olunur**

Prezident İlham Əliyev xarici KİV-ə müsahibələrində azərbaycançılığın xarakterik xüsusiyyətlərindən olan insanlığın, humanizmin, tolerantlığın, başqa xalqlara dözümlü münasibətin, multikulturalizmin təbliğatı və təqdimatı necə gedir?

Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) A.Bakıxanov adına Tarix İnstitutunun aparıcı elmi işçisi, tarix elmləri doktoru Vaqif Abışov "Bakı-Xəbər"ə bildirdi ki, Azərbaycan multikulturalizmə, tolerantlığa min illərdir sahibdir və bu ənənəyə hər zaman sadiqdir. V.Abışovun sözlərinə görə, azərbaycançılıq ötən əsrlərdə olduğu kimi, XXI əsrdə də öz humanizm, tolerantlıq, multikultural təzahürləri çox yüksək səviyyədə özündə ifadə edir və ölkə başçısı da xarici KİV-ə verdiyi bütün müsahibələrində azərbaycançılıq ideologiyasının bütün üstünlüklərini lazımi səviyyədə təbliğ və təqdim edir.

V.Abışovun bildirdiyinə görə, Prezident İlham Əliyev öz müsahibələrində açıq şəkildə bildirib ki, biz mülki əhalini hədəfə almırıq, onları öldürmürük, erməni xalqı ilə müharibə aparmırıq, bizim erməni xalqı ilə heç bir problemimiz yoxdur, onlar qalıb rahat yaşaya bilərlər, biz mədəniyyətləri dağıtmırıq, kilsələri məhv etmirik, erməni uşaqlarına güllə atmırıq, amma onlar bizim məscidləri dağıdır, uşaqlarımızı hədəfə alırlar. V.Abışov qeyd etdi ki, həqiqətən də Prezident xarici KİV-ə verdiyi müsahibələrdə Azərbaycan xalqının humanizm, rəhimdillik, insanpərvərlik, tolerantlıq, multikulturalizm kimi xüsusiyyətlərini çox yüksək səviyyədə dünyaya çatdırır. Prezidentin bütün müsahibələrində azərbaycançılıq ideologiyasının əsas mahiyyətinin ifadə olunduğunu deyən V.Abışovun qeyd etdiyinə görə, beynəlxalq aləm bir daha Prezidentin çıxışından burada yaşayan bütün xalqların hüquq və dini etiqad azadlıqlarinin yüksək səviyyədə təmin edildiyini duyub.



**"Azərbaycançılığın tolerant, multikulturalizm, humanizm kimi təzahürlərə malik olmasının göstəricisidir ki..."**

"Prezident İlham Əliyev nəinki son həftələr xarici KİV-ə verdiyi bütün müsahibələrində, eləcə də bundan əvvəl beynəlxalq təşkilatların ən yüksək tribunalarında etdiyi çıxışlarda azərbaycançılığın bütün mahiyyətini ifadə edib, ölkəmizin tolerant, multikultural, humanist, sülhpərvər bir ölkə olduğunu dəfələrlə qeyd edib. Azərbaycan Prezidentindən müsahibə götürən xarici KİV təmsilçiləri "Dağlıq Qarabağda yaşayan erməni əhalisinin taleyi necə olacaq" sualı üzərində xüsusilə dayanırlar. Bu, gündəmdə olan məsələdir. Cənab Prezident də bütün müsahibələrində bu suala çox ətraflı şəkildə aydınlıq gətirir. Azərbaycançılıq ölkəmizdə yeni deyil, bu, minillərlə yaşı olan bir ideologiyadır. Ölkəmizdə bu gün olduğu kimi, tarixin bütün dövrlərində multikulturalizm, tolerantlıq kimi bəşəriyyət üçün vacib təzahürlər olub. Azərbaycanda tarixən birgəyaşayışın ən gözəl örnəkləri öz ifadəsini tapıb. Prezident həm müsahibələrində, həm rəsmi görüşlərində, həm də beynəlxalq platformalarda dünyanın gözü qarşısında azərbaycançılığın təməl prinsiplərini açıq ifadə edib ki, Azərbaycan çoxmillətli, çoxmədəniyyətli, çoxdinli bir ölkədir və burada bütün xalqlar əmin-amanlıq, sülh, tərəqqi içində yaşayırlar. Birmənalı olaraq, bizdə multikulturalizm, tolerantlıq, milli-dini dözümlülük, dinlərarası dialoq azərbaycançılığın ayrılmaz parçası kimi özünü ifadə edib. Bu gün də bu belədir. Prezident dəfələrlə vurğulayıb ki, biz dinc erməni əhalisi ilə müharibə aparmırıq, onları hədəfə almırıq, bu gün Azərbaycanda digər xalqlarla yanaşı, minlərlə erməni əmin-amanlıq, sülh şəraitində yaşayır, heç kəs onlara bir kəlmə belə söz demir. Ölkəmizdə yaşayan ermənilərə qarşı heç bir milli-dini ayrıseçkilik mövcud deyil. Azərbaycanda yaşayan ermənilər də bizim Konstitusiyamızın verdiyi imkanlardan istifadə edərək yaşayırlar. Ermənistanın Azərbaycan xalqına qarşı həyata keçirdiyi etnik təmizləmə siyasəti Azərbaycanda ermənilərə qarşı heç zaman tətbiq edilməyib, onlar bizim ölkənin tamhüquqlu vətəndaşlarıdır. Əlbəttə, bütün bunlar azərbaycançılığın tolerant, multikulturalizm, humanizm kimi təzahürlərə malik olmasının göstəricisidir ki, bunları da Prezident çox yüksək səviyyədə beynəlxalq ictimaiyyətə çatdırır " - deyə V.Abışov qeyd etdi.

**"Prezidentin azərbaycançılıq ideologiyasından çıxış edərək səsləndirdiyi fikirlər..."**

V.Abışovun sözlərinə görə, Prezident İlham Əliyevin xarici KİV-ə verdiyi müsahibədə Dağlıq Qarabağda yaşayan ermənilərin gələcəyinə dair səsləndirdiyi humanist fikirlər də azərbaycançılıq ideologiyasının mahiyyətinin ifadəsidir: "Cənab Prezident müsahibələrində Dağlıq Qarabağda yaşayan ermənilərin bizim vətəndaşlarımız olduqlarını, onların da digər vətəndaşlarımız kimi əmin-amanlıq və sülh şəraitində yaşayacaqlarını bildirib. Əlbəttə, Ermənistanın terrorçu, separatçı silahlı birləşmələri bizim torpaqlarımızı tamamilə tərk etdikdən sonra biz Dağlıq Qarabağdakı erməni vətəndaşlarımızın qeydinə qalacağıq. Prezident özü qeyd edib ki, "Dağlıq Qarabağda yaşayan ermənilər bizim vətəndaşlarımızdır. Biz onları belə tanıyırıq. Ümid edirəm ki, bu işğalçı siyasətə son qoyulandan sonra bizim xalqlarımız barışacaq". Cənab Prezident bununla açıq bildirdi ki, onlar üçün heç bir təhlükə yoxdur və onlar rahat şəkildə bizim vətəndaşlar kimi yaşaya bilərlər. Hətta Prezident xarici KİV-ə müsahibəsində İkinci Dünya Müharibəsindən misallar da çəkdi ki, Almaniya ilə Sovet İttifaqı arasında baş verən müharibədən sonra xalqlar necə əmin-amanlıq şəraitində yaşayırlar və sair. Bu baxımdan, Azərbaycanın çoxəsrlik tarixi də sübut edir ki, Azərbaycan çoxmillətli, çoxdinli, çoxmədəniyyətli ölkədir, xalqımız heç vaxt milli-dini ayrıseçkiliyə yol verməyib və ölkəmizdə belə zəmində problem baş verməyib. Hesab edirəm ki, bu məsələ ilə bağlı heç bir beynəlxalq ekspert bizə irad bildirə bilməz. Prezident azərbaycançılıq ideologiyasından çıxış edərək, Dağlıq Qarabağdakı ermənilərin gələcəkdə bizimlə əmin-amanlıq şəraitində, sülh içində yaşayacağını bildirib. Bunu bütün Azərbaycan ictimaiyyəti, eləcə də beynəlxalq ictimaiyyət, o cümlədən də Rusiya KİV-i təqdir edir. Onlar da Prezidentin azərbaycançılıq nöqteyi-nəzərdən etdiyi çıxışları, səsləndirdiyi fikirləri dəyərləndirirlər və qəbul edirlər" - deyə V.Abışov vurğuladı.

*İradə SARIYEVA*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**